**İMDAD BAYRAMOV**
***BDU-nun dosenti, p.e.n.***

# QLOBALLAŞMA ŞƏRAİTİNDƏ PSİXOLOJİ İDENTİKLİK PROBLEMİ

Qloballaşma prosesi psixoloji olaraq insanın adaptiv təbiətinə və onun daxili aləmi ilə əlaqədar problemlər yaratmış və insanın mövcud normalara adaptasiyası fövqündə seçim hüququnu məhdudlaşdırmışdır. Qloballaşmanın inkişafı separatizmin genişlənməsinə və yeni milli təhlükəsizlik strategiyalarının işlənib hazırlanması zərurətinə şərait yaratmışdır [1.s.253]. Bunun ideoloji təməlində insanın öz sosial-mədəni, milli və etnik xüsusiyyətlərindən imtina etmək hesabına metasosial məkana adaptasiya olmasının səmərəliliyini dəstəkləyən sivilizasiya təfəkkürü ideyası dayanır. Qlobal sivilizasiya ilə qloballaşma anlayışları bir-birindən öz xarakterinə görə fərqlənir [2.s.196]. Bu baxımdan sivilizasiyalı qloballaşma norma istehsalı imkanlarının vahid transmilli və metasosial bir mərkəzə köçürülməsi və dünya intellektual gücünün bu mərkəzdə birləşməsi deməkdir. Fərdin bu mərkəzin fəaliyyətində iştirakı, yanlız onun normalarına adaptasiya olmaqla və onun funksiyalarının ayrılmaz bir hissəsinə çevrilməklə yanlız «seçilmişlər» üçün mümkündür. Bu proses dünyanın sosial sistemini intellektual zəmində azlıq təşkil edən intellektual elitaya və onlara tabe olan üçüncü dünya ölkələrinin yoxsul kütləsinə bölür. Sivilizasiyon təfəkkür mövcud sosial sistemi passiv müşahidə etmək və ona adaptasiya olmaq məcburiyyətində qalır. Lakin «transformasiyalı inkişaf» prosesində insan-cəmiyyət münasibətləri subyekt-obyekt münasibətləri üzərində deyil, cəmiyyət dəyişiklikləri və sosial həyatın keyfiyyətinin yenidən qurulması məntiqi üzərində formalaşmışdır. Yanlız qarşılıqlı əməkdaşlıq şəraitində formalaşması mümkün olan bu rejimdə insana olan tələbat və onun şəxsiyyətinin formalaşması imkanları təmamilə fərqlidir. Birinci növbədə bu rejimdə olan insan adaptiv təfəkkürə deyil, transformasiyalı təfəkkür sisteminə, yəni tarixin konstruktiv refleksiyasının transformasiyalı inkişafa çevrilməsini təmin edən imkanlara malik olmalıdır. Sivilizasiyalı təfəkkürün psixoloji məhsulu xarici metasosial norma ilə deformasiya olunan fərdi normadırsa, transformasiyalı təfəkkürün psixoloji məhsulu yeni mədəni, sosial və metasosial normadır.

İnsanın tarixi yaradıcılığı, öz tarixi keçmişi (milli ənənələr), müasir təcrübəsi və xarici təsirlərin (inkişaf etmiş xalqların təsiri) kəsişməsi mühitində reallaşır. Tarixin kritik məqamları insan düşüncəsinin transformasiyası ilə bağlıdır. Hal-hazırda müasir dünya cəmiyyəti bu psixoloji durumu yaşayır [3.s.26]. Transformasiyalı təfəkkür, tarixin dramatik mərhələlərinin, sosial kataklizmlərin nəticəsi kimi, müxtəlif mədəni-tarixi təfəkkür formalarının və sosial normaların toqquşması şəraitində ortaya çıxır. Bu təfəkkür mövcud sosial sistemin tələblərə uyğun olmadığını müəyyənləşdirir və yeni inkişaf yolları axtarır. İnsanın hər iki tarixi prosesdə, sivilizasiyalı və transformasiyalı sosial inkişaf formalarında sosial-psixoloji rolları fərqlənir. Qloballaşma prosesinin metasosial normaları refleksiv və dəyərləndirmə prinsipləri ilə həyata keçirilmir. İnsan bu prosesin özünə, onun funksiyasına və ya ötürücüsünə çevrilir. Əslində proses fərdin iradəsinin fövqündə baş verən bir prosesə çevrilir [4.s.56]. Sivilizasiyalı təfəkkür bu yolla fərdi normaların metasosial normalara çevrilməsinə şərait yaradır. Yeni sosial tarixin formalaşmasını təmin edən transformasiyalı təfəkkürün əsas ideyası isə, sosial inkişafın mənbəyi kimi fərdi insan ideyasına əsaslanır. Bu insanın əsas qabiliyyəti tarixi konstruktiv refleksiyaya qarşı həssaslıq ilə səciyyələnir. O, sosial funksioner missiyasından *əl çəkərək, fəaliyyəti ilə sosial tarixi öz şəxsi fəaliyyət sahəsinə çevirən tarixi şəxsiyyətə çevrilir.*

Bir çox sosioloqların fikirlərinə görə, «biz - onlar» antitezi, yanlız sosial psixologiyada deyil, həmçinin zaman (öz dövrünün spesifikliyini dərk etmək) və məkandakı (öz etnos, millət və sivilizasiyanın spesifikliyini dərk etmək) qlobal fərqliliklərə aidiyyəti olan mədəni-tarixi təcrübədə də mühüm əhəmiyyətə malikdir. Deməli, tranformasiyalı inkişafda əsas sosial proseslər süni metasosial və trannasional superetnosların yaradılması ilə deyil, təbii etnos və milli mədəniyyətlərin möhkəmlənməsi və davamlı inkişafı ilə bağlı bir prosesdir. Məhz bu təməl üzərində əməkdaşlıq və qarşılıqlı refleksiya dünya birliyinin tranformasiyalı inkişafını təmin edən strateji mənbəyə çevrilir. Bu şəraitdə hər bir insanın şəxsi həyatı məna qazanır. Zaman, doğma sivilizasiya və millət fenomeni öz mənsublarına yeni imkan, perspektiv və unikal məsələlər açır. Dünya birliyi, hər bir sivilizasiya, nəsil və insan ayrı-ayrılıqda öz tarixi missiyasına inanır. Çünki özgələşmə insanın kreativ təbiətini əks etdirmir və insanın psixoloji inkişafına ziddir. Buna görə də, insanda sosial-mədəni nümunələr əsasında səmərəsiz dünyagörüşünü deyil, tranformasiyalı inkişafa təməl olan səmərəli psixoloji dünyagörüşü sistemi yaratmaq lazımdır. Bu sistem, insanı cəmiyyətin fərdi forması kimi deyil, cəmiyyətin fərdi inkişaf mənbəyi kimi dəyərləndirməlidir [5.s.68].

Artıq qeyd etdiyimiz kimi qloballaşma prosesi özünü dünyanın hər bir qitəsində bu və ya digər şəkildə biruzə verir. Lakin dünyanın ümumi psixoloji mənzərəsi müxtəlif mədəniyyətlərin, dinlərin, ənənəvi dünyagörüşü və psixiloji sistemlərin tarixi formalarının vəhdətindən ibarətdir. Qloballaşmanın sosial-mədəni, psixoloji unifikasiya prosesi, bir tərəfdən onların identiklik məsələsinə təhlükə yaradığı halda, digər tərəfdən psixoloji olaraq identiklik probleminə qarşı həssaslığını daha da artırır [6.s.33]. Qloballaşmanın unifikasiya prosesi özünü daha çox kütləvi urbanizasiya, miqrasiya, kompüterləşmə hadisələrində biruzə verir. Bunu kütləvi şəkildə təhsil, əmək və digər məqsədlərlə müşayiət olunan miqrasiyalarda, gender məsələlərinin aktuallaşması ilə, əhalinin kənd yerlərindən kütləvi şəkildə şəhərə, meqapolislərə axını ilə, kompüterləşmənin, internetin dünyanın ən ucqar yerlərinə qədər yayılması, bazar iqtisadiyyatı psixologiyasının dünya iqtisadi sistemini müəyyənləşdirməsi ilə, ingilis dilinin geniş tətbiqi ilə səciyyələnir. S. Bokner sosial-psixoloji tədqiqatlarının nəticəsində qloballaşma şəraitində mədəniyyətlərarası münasibətlərin dörd formasını müəyyənləşdirmişdir [7.s.76]:

1. Genosid – zidd qrupu yox etmək;
2. Assimlyasiya – hakim qrupun mədəniyyətdə yox olana qədər onun adət-ənənələrini, inamlarını, normalarını tədricən, məcburən və ya könüllü sürətdə qəbul etmək;
3. Seqreqasiya – qrupun müstəqil inkişaf kursu;
4. İnteqrasiya – yeni əsaslarla vahid bir cəmiyyətdə birləşən qrupların öz mədəni identiklərini qoruyub saxlamaları;

Müasir dövrdə psixoloji olaraq mədəni identiklik problemi yaradan qloballaşma prosesi, yeni məlumatlara, qeyri-adi şeylərə daha çox açıq olan, internetə, yeni bədii janrlara daha həssas adaptasiya olan dünya gəncləri arasında geniş yayılır. Xüsusilə böyük şəhərlərdə yaşayan gənclər «qlobal nəsil» psixikasının ən bariz nümayəndələridirlər. Onlar arasında identiklik məsələləri ilə əlaqədar fərqli adaptiv psixoloji xüsusiyyətlər meydana çıxır. Onlar mənsub olduqları yerli mədəniyyətin ənənəvi xarakterindən asılı olmayaraq, bu və ya digər səviyyədə yeni postmodernist düşüncəyə adaptasiya olurlar. Çünki ənənəvi həyat tərzinin müasir tələblərlə uyğunlaşmaması, yeni düşüncənin varlığını zəruri edir. Bir tərəfdən əsrlərlə davam edən ənənəvi mədəni irs, digər tərəfdən onları inkar edən yeni dəyərlər sistemi, onları böyük bir seçim qarşısında qoyur. Lakin informasiya bolluğu, mütəmadi olaraq dəyişikliyə məruz qalan psixoloji dinamikanın qeyri-mütənasibliyi belə bir seçimin edilməsini çətinləşdirir. Unifikasiya prosesi alternativ seçimlərin edilməsinə şərait yaratmadığına görə, mövcud duruma adaptasiya

olunmaqdan başqa çıxış yolu qalmır. Buna görə də, gənclər özünütəsdiq yolunu qlobal dəyərlərə yiyələnməkdə görürlər. Bu özünü, yaşadıqları və mənsub olduqları mədəniyyətin xarakterindən asılı olmayaraq, onların qərb dəyərlərinə meylli olmasında, geyimlərində, davranış normalarında, zövqlərində, fəaliyyət növlərində biruzə verir. Məsələn öz patriarxallığı və ənənəviliyi ilə seçilən ərəb ölkələrində imkanlı ailələrdən olan gənclər avropa ölkələrində təhsil alır və qərb həyat tərzini öz yaşadıqları mədəniyyətə gətirirlər. Onların milli geyimləri ənənəviliyin nümunəsi olsada, onların gündəlik həyat tərzi qlobal həyat tərzinin nümunəsidir. Ümumiyyətlə, bütün ənənəvi şərq ölkələrinin gənclərində qlobal qərb dəyərlərinə olan meyllilik artır və buradan da yaşlı nəsil ilə onlar arasında sosial-mədəni problemlər yaranır. Bu problemlər əsasən bir çox gənclərin ənənəvi dəyərlərə olan laqeydliyi və ya itaətsizliyi ilə bağlıdır. Məsələn, ənənəvi şərq cəmiyyətləri üçün qeyri-normal hesab olunan adət-ənənələrə hörmətsizlik, oğlan uşağına olan ənənəvi diqqətin azalması, nigaha qədər hamiləlik, əsasən şəhərdə həddi-buluğa çatmamışlar arasında artan aqressiv cinayət hadisələri, ailədə ata-anaya olan ənənəvi hörmət və qayğının azalması (xüsusilə, çin və yapon ailələrində) [8.s.23] və başqa bu kimi sosial-mədəni dəyişiklikləri misal göstərmək olar. Gəncləri fərdilikçilikdə, maddəçilikdə, eqoizmdə, hedonizmdə təqsirləndirən yaşlı nəsil [9.s.22], bu problemlərin mənşəyini əsasən qərbin informasiya vasitələrinin genişlənməsi ilə əlaqələndirirlər [10.s.45].

Miqrasiya nəticəsində başqa mədəniyyət daxilində yaşayanların psixoloji durumu «mədəni şok» kimi tanınan akultirizasiya problemləri ilə səciyyələnir. Çünki yeni mədəniyyətə daxil olanlar öz sosial statusunu, dostlarını itirir, mədəniyyətlərin fərqindən ortaya çıxan inkarçılıq, heyrət, diskomfort kimi psixoloji hisslərini yaşayır, öz şəxsi identikliyini inkar edən digər dəyərlər sistemi ilə toqquşur. Bu bir tərəfdən özünə inamsızlıq, həyacan, əsəb, yuxusuzluq, depressiya, psixosomatik pozuntular ilə müşayiət olunu «mədəni şok» durumu yaradırsa, digər tərəfdən şəxsiyyətin formalaşmasına xidmət edən yeni dəyərlərin, həyat tərzi və davranış normalarının mənimsəlməsi ilə müşayiət olunur [11.s. 134]. Yəni akultirizasiya psixoloji durumuna məruz qalan şəxsin psixikası stress-adaptasiya-şəxsiyyətin inkişafı dövriyyəsi ilə davam edən mərhələlərdən keçir [12.s.21].

Qloballaşmada beynəlxalq əlaqələrin intensivləşməsi şəraitində etnoslararası, mədəniyyətlərarası inteqrasiya prosesi sürətlənir. Tələbə mübadiləsi, mütəxəssislərin ezamiyyətləri, alimlərin beynəlxalq konfranslarda iştirakı, mədəniyyət işçilərinin qostrol səfərləri, turizm, əmək miqrasiyası və başqa mələlərlə əlaqədar artan əlaqələr, həmçinin din, dil, adət-ənənələr, sosial-mədəni dəyərlər, dünyagörüşü, davranış normaları, irqi və etnik mənsubluq, mentalitet fərqi baxımında bəzi problemlər yaradır. Yeni mədəni mühitə düşən insan, onun həyat tərzini tamailə dəyişən bütün bu elementlərə uyğunlaşmaq məcburiyyətində qalır. Onlar arasında ən mürəkkəbi etnik əqidə, stereotip, xəyallarla müşayiət olunan etnoslararası münasibətlərdir. Onların bir-birinə yaxınlaşması, bir-birini tanıması, tolerant münasibətlərin inkişafı problemin həlli yollarından biri hesab olunur [13.s.78]. Lakin adaptasiya formaları şəxslərin yaş, intellektual, mədəni səviyyələrinə görə bir-birindən fərqlənir. Fərdi fərqlərə gələndə demək olar ki, gənclər, yüksək intellektual və ali təhsilli, kosmopolit dünyagörüşlü, özünəinamlı, peşəkar, ünsiyyətli, ekstravert şəxslər, avtoritar şəxslərdən fərqli olaraq müxtəlif sosiomədəni şəraitə daha tez adaptasiya olurlar. Sosial fərqlərə gələndə isə demək olar ki, miqrantlar (tələbələr, işçilər) qarşılarına qoyduğu məqsədlərə görə, yerli mədəniyyətdə müşahidə olunan bir çox fərqlərə (ailə strukturu, iqlim, din, dil, yemək və geyimlər) şüurlu şəkildə adaptasiya olurlar [14.s.77]. Məsələn, yaponlar bu baxımdan ən çətin adaptasiya olan əhali qrupu hesab olunur. Bunu onların digər mədəniyyətlər ilə tanışlığının az olması

və mərasim xarakterli davranış normaları ilə əlaqələndirirlər [15.s.34]. Bu həmçinin miqrantları qəbul edən ölkənin tolerantlıq mədəniyyətindən də asılıdır. Belə tolerant ölkələr sırasına əsasən Kanada, İsveçrə və Avstraliyanı aid etmək olar.

Qloballaşmanın gətirdiyi dəyişikliklərdən biri cəmiyyətdə «sosial adam» statusuna (işləmək, nigahlanmaq, valideyn olmaq) daxil olmaq üçün seçilən yaş həddi ilə bağlıdır. Bu keçid, artıq dünyanın hər yerində gec yaş həddinə təsadüf edir. Qlobal iqtisadiyyat mütəmadi dəyişikliyə məruz qalan texnologiyalara, qeyri-davamlı inkişafa əsaslandığı üçün, bir tərəfdən işsizlik problemi, digər tərəfdən uzun müddətli təhsil və əmək miqrasiyası problemi yaşanır. Bu isə, nəticədə «sosial adam» statusuna daxil olmanın müddətinin uzanmasına, bəzən bu statusdan məhrum olmağa gətirib çıxarır. Sosiallaşması ilə bağlı yaranan sosiopsixoloji problemlər, ənənəvi cəmiyyətin məcburi sosiallaşma normalarından azad olan şəxsin müstəqil həyat tərzində daha da dərinləşir. Buna görə də, onları buna vadar edən normalar zəiflədiyi üçün, onlar istədikləri vaxt ailə qurmağı seçirlər. Bu yaş həddi, qloballaşmanın təsiri ilə dünyada vahid bir məxrəcə yaxınlaşır. Qeyri-stabil həyat tərzi, evsizlik, işsizlik, ailəsizlik, boşanma problemləri, sosiallaşmaya təbii ehtiyac duyan sağlam insan psixikasının pozulmasına və nəticədə cəmiyyətdə bir çox sosial-psixoloji problemlərin yaranmasını şərait yaradır.

Dəyər konflikti cəmiyyətin istənilən fəaliyyət sahəsində aşkar olur. Hər bir insan fəaliyyəti davranış normalarını və məqsədləri formalaşdıran dəyərlərə nisbətən dərk olunur. Buna görə də, qloballaşma ilə bağlı fərdi identikliyin bir neçə aspekti ortaya çıxır. Qloballaşma şəraitində mədəniyyətlərarası münasibətlərlə bağlı S. Bokner fərdin dörd nəticə ilə üzləşdiyini bildirir [16.s.41]:

1. Digər mədəniyyətə görə, öz mədəniyyətini tərk edən;
2. Şovinist - yaxud öz mədəniyyətinə görə, digərini tərk edən;
3. Marginal - ikisi arasında tərəddüd edərək daxili konflikt, identiklik qarışıqlığı, hər ikisindən məhrum olmaq problemləri ilə üzləşən;
4. Əlaqələndirici - hər ikisini öz şəxsiyyətində sintez edən;

Müvafiq akultirizasiya üsulları sxemi konsepsiyasını C. Berri və digərləri də irəli sürürlər. Onlara görə, qloballaşma şəraitində fərdin qarşısında assimlyasiya, separatizm, marginallıq və inteqrasiya ilə bağlı dörd yol qalır [17.s.47]. M. Bennet bu modelə əsasən müəyyənləşdirir ki, fərd uğurlu adaptasiya prosesində üç etnosentrik (fərqi aradan qaldırmaq, öz qrupunun mənfəəti hesabına onların qiymətləndirilməsi ilə fərqdən qorunmaq, fərqin minimuma endirilməsi ilə tanınan universal mövqe) və üç etnorelyativist (fərqin qəbulu, mədəni və ya qrup fərqinə adaptasiya yəni inteqrasiya olunmaq, etnorelyativizmi öz identikliyinə qəbul etmək) mərhələdən keçir. Fərdin formalaşmasının ən yüksək mərhələsi «konstruktiv marginallıq», «mədəniyyətlərarası əlaqələndirici» durumu ilə səciyyələndirilir [18.s.187].

Fərdin bikültürəl identikliyi, onun həm yerli, həm də qlobal mədəniyyətin təsirindən formalaşan elementlərinin sintezindən ibarətdir. O, əsasən qeyri-qərb mədəniyyətinə mənsub olan gənclər arasında geniş yayılır. Çünki qloballaşmanın təsiri altında tədricən dəyişikliyə məruz qalan yerli mədəniyyət qlobal mədəniyyətlə vahid bir məkanda qarşılaşır və onların hər ikisinə öz aidiyyətini hiss edən gənc nəsil, özünü tam mənada nə yerli, nə də qlobal mədəniyyət ilə identifikasiya edə bilir. Seçim qarşısında qalan gənclərə yaşlı nəsil kimi əvvəlki ənənələrə mütləq mənada bağlanmaq mümkün olmadığı kimi, identikliyin psixoloji bağlılığından tamamilə ayrılmaq da mümkün deyildir. Lakin onlar arasında hər iki ifrat istiqamətə ayrılmaq meylləri ilə yanaşı, orta mövqedə dayananlar da müşahidə olunur. Müvafiq yaş qrupuna (10-18 və 18-25 yaşlılar arasında) aid olan fərdlər arasında qlobal təfəkkürə uyğun şüur yəni bikültürəl mə-

dəniyyət psixikası formalaşır [19.s.25]. Bu proses özünü emiqrantlar və etnik azlıqlar arasında daha çox göstərir [20.s.1116].

Bikültürəl identiklik, gənc nəsildə dünya mədəniyyətinə inteqrasiya olunmaq, dünyada gedən qlobal proses və hadisələri, yayılan informasiyaları anlamaq baxımından yardım edir. Bununla onlar digər mədəniyyətlərlə operativ ünsiyyət qurmaq və ondan yararlanmaq baxımından seçilirlər. Digər tərəfdən onlar özlərini reallaşdırmaq üçün qapalı bir məkanın (ev, vətən) psixoloji dairəsindən asınlıqla kənara çıxır və özlərin hər yerdə rahat, öz vətənlərindəki kimi hiss edirlər. Bikültürəl mədəniyyətin formalaşmasında və qloballaşma prosesinin sürətlənməsində internetin (tanışlıq saytları, kollektiv oyunlar və s.) və emiqrasiya siyasətinin rolu böyükdür [21.s.4].

Xarici ölkələrə təhsil və iş dalınca gedən emiqranlar yaşadıqları mühitdə akultirizasiya prosesinə məruz qalmaqla yanaşı ailə, qohumluq institutu, yerli ənənələr vasitəsilə kök salan milli mədəniyyətin elementlərini diasporalar, milli televiziya və radio kanalları, dini məbədlər, milli məktəblər vasitəsi ilə yaşayıb yaşadırlar. Bu isə vahid mədəni ərazidə müxtəlif mədəniyyətlərin, psixololji sistemlərin qarşılıqlı əlaqəsinə şərait yaradır [22.s.123].

Milli mədəniyyətin psixoloji elementləri çox güclüdür. Onlar şüurda şəxsin daha çox psixoloji özünüqoruma mexanizmi rolunu oynayır. Bikültürəl mədəniyyət psixikasına mənsub olanların şüurunda milli dəyərlər şəxsi ailə məsələləri ilə daha çox bağlı olduğu halda, qlobal dəyərlər onların sosial məsələləri ilə bağlıdır. Məsələn, Hindistanda qərb təhsili almış və qərbin elmi-texniki nailiyyətlərinə yiyələnmiş gənclərin evlənərkən və valideynlərinə münasibət göstərərkən, öz milli dəyərlərinə hörmətlə yanaşıldığı müşahidə olunmuşdur [23.s.42]. Bu isə şəxsin psixikasında fərdi və sosial tərəflər arasında psixoloji balansın pozulması və hətta bəzən onların toqquşması ilə müşayiət olunan ağır psixoloji problemlərdir. Bu problemlərin aradan qaldırılması onlar arasında psixoloji balansın tənzimlənməsinə bağlıdır.

Akultirizasiya prosesi nəticəsində fərdin öz mədəniyyətinə və qlobal mədəniyyətə qarşı artan laqeydliyi, onun hər iki mədəniyyət tərəfindən inkar olunmasına gətirib çıxarır. Bu ağır psixoloji durum marginal identiklik kimi səciyyələndirilir [24.s.26]. Qloballaşmanın təsiri ilə tədricən yox olmaq təhlükəsi ilə qarşılaşan patriarxal (ailə ənənəsi olan) mədəniyyət daha çox eqalitar xarakter daşımağa başlayır. Bunu Afrika ölkələri və Yaponiya timsalında aydın görmək mümkündür [25.s.27]. Bu proses, qeyri-iradi olaraq yerli mədəniyyətdə qarışıq identiklik ilə əlaqədar ziddiyyətli psixoloji durumun yaranmasına şərait yaradır. Bu patriarxal ailədə və cəmiyyətdə sosiomədəni ata avtoritetinin aşağı düşməsinə və vahid məkanda mədəniyyətlərin toqquşmasına gətirib çıxara bilər. Bu akkultirativ toqquşma qarışıq identiklik problemi yaradır. Vahid məkanda olan iki mədəni proses arasında psixoloji ziddiyyət nə qədər dərin olsa, bir o qədər adaptasiya prosesi çətinləşəcəkdir. Belə mədəniyyətlər qarışıq identiklik problemindən qaçmaq və özünü qorumaq üçün, qlobal mədəniyyətdən təcrid olunmaq yolunu tuturlar. Çünki marginal identiklik gənclər arasında intihar, narkomaniya, nigilizm, aqressiya ilə nəticələnən depressiya hallarının artmasına zəmin yaradır. Biz bu psixoloji problemi, yanlız müasir elmi-texniki və sosial inkişafdan geridə qalan patriarxal ölkələrdə deyil, individualizm, bazar iqtisadiyyatı, demokratiya, tolerantlıq, plüralizm nümunəsi sayılan qərb cəmiyyətlərində də müşahidə edirik. Bu isə, qloballaşma prosesinin milli mədəniyyətlərdən təcrid olunmuş şəkildə və onların inkarı istiqamətində inkişafının, eyni zamanda doqmatizm, dözümsüzlük yolunu tutan bəzi milli mədəniyyətlərin qloballaşmadan təcrid olunaraq inkişaf etməsinin sosial-psixoloji baxımdan qeyri-mümkün olduğunu göstərir. İnkişaf hər iki tarixi prosesin subyektiv deyil, obyektiv əsasları-

nın sintezi şəklində mümkündür. Təbii ki, bu da problemin elmi şəkildə araşdırılmasını və ona obyektiv qiymətin verilməsini tələb edir.

Qloballaşma prosesinin gətirdiyi mürəkkəb və qeyri-müəyyən psixoloji identiklik problemləri, dünyada konkret psixoloji identiklik və psixoloji sabitliklə təmin olunan dini identikliyin aktuallaşmasına səbəb olur. Dinlərin qloballaşmaya münasibəti, onu dərk formaları bir-birindən ontoloji və epistomoloji baxımdan fərqlənir [26.s.67]. Çünki onlar müxtəlif tarixi mədəniyyətlərdə əks olunur və müvafiq mədəniyyətlər sonradan siyasi-iqtisadi zərurət baxımından müəyyən tarixi sosial birlik formalarında, sivilizasiyalarda birləşərək, tarixi prosesin tərkib hissəsinə çevrilirlər. Dünyanın xolistik (vəhdət) mənzərəsi, aksioloji davranış stereotipləri, mənəvi dəyərlər, insanı və dünyanı barışdıran psixoterapevtik funksiyalar dini matrisalar üzərinə düşür. Hər bir insanın reallıq barədə təsəvvürü, müşahidə etdiyi ilə üst-üstə düşmür. "Ölüm qorxusunu" dəf etmək, «fanilik və əbədiyyət» ziddiyyətindən xilas olmaq, əbədiyyəti qazanmaqla öz varlığını qorumaq hissi, hər bir dini matrisanın tarixi varlığını qoruyan ən güclü attraktordur. Buna görə də, bu seçim, yanlız ayrı-ayrı fərdlərin deyil, hətta böyük dövlət və sivilizasiyaların seçimi ilə müşayiət olunur [27.s.34]. Bu baxımdan şərqdə formalaşan sivilizasiyalar əsasən psixoloji baxımdan dini təlimlərin sosial-psixoloji prinsiplərinə söykəndiyi halda, qərbdə aparıcı qüvvəyə çevrilən qlobal mədəniyyət isə dünyəvi prinsiplərə söykənir [28.s.56].

Əslində xristianlığın sosial-mədəni psixologiyasından fərqli olaraq, islam dinində dini və dünyəvi dəyərlərin ziddiyyəti problemi yoxdur. Bu baxımdan islam mədəniyyəti kontekstində adaptasiya prosesinin böyük sosial-psixoloji tərəddüdləri yaşana bilməz. Qloballaşmadan çıxış yolunu aqressiv psixoloji durumlarla müşayiət olunan fundamentalizmdə axtaran dini cərəyanlar, əslində qloballaşan islamın təkamülünə zidd istiqamətdə fəaliyyət göstərirlər. Çünki islam dininin sosial-psixoloji prinsipləri mənəvi təkamülə əsaslanan introvert, həm də sosial inkişafa əsaslanan ekstrovert xarakterli olduğu üçün, biz onu nə şərq, nə də qərb fenomeninə aid edə bilərik. Bu mədəniyyət etnik birliyə deyil, mənəvi birliyə əsaslanandığı üçün qeyri-lokal, qlobal xarakter daşıyır. Bu baxımdan Qurani-Kərimdə müvafiq problemin qoyuluşu və həlli yolları alternativ variantların öyrənilməsi və üzə çıxarılması nöqteyi-nəzərindən tədqiq olunmalıdır. Müasir transformasiyalı inkişaf modelləri öz mahiyyəti baxımında islamın təməl prinsipləri ilə səsləşir. Buna görə də islam dəyərlərinin qloballaşmaya alternativliyi barədə yayılan fikirlərin elmi əsasları vardır. Çünki Qurani-Kərimdə xalqların, millətlərin mədəniyyətlərin müxtəlifliyi prinsipinə hörmətlə yaşanılır. Bu prinsip, xalqların özlərini dərk etməsinə və bir-birini yaxşı tanıyaraq qarşılıqlı hörmət əsasında əməkdaşlıq mühitində inkişafına şərait yaradır. İslamda qloballaşma ideyası isə bu müxtəlifliyin üzərində formalaşan mənəvi qloballaşmadır. Bu baxımdan islam sivilizasiyası ideyası müasir dövrdə aktuallaşır. Müasir dünyada yaranan qlobal problemlərin həlli yolları mücərrəd «yeni humanizm» ideyalarının tətbiqində deyil, müasir dövr üçün daha da aktuallaşan İslam dəyərlərinin elmi-konseptual şəkildə öyrənilib, cəmiyyətlərin həyatında praktiki tətbiqindən asılıdır.

Dünyada qloballaşma ilə əlaqədar seçilən alternativ variantlara qeyri-dini mədəniyyətləri də aid etmək olar. Məsələn 80-90-cı illərdə əsasən qərbdə gənc nəslin psixikası xüsusi geyim və davranışlarla, qloballaşmanın yaratdığı sosial-ekoloji problemlərinə pessimist etiraz səsləri ilə müşayiət olunan ağır metal musiqisi ilə formalaşdı. Milyonlarla gəncin bu musiqi hərəkatında birləşməsi qloballaşmaya qarşı kütləvi bir etiraz kimi də dəyərləndirilə bilər. Yaxud qloballaşmanın siyasi-iqtisadi problemlərinə kəskin etiraz nümunəsi olaraq Latın Amerikada tələbə hərəkatlarını misal göstərmək olar. Bü-

tün bu hərəkatların aparıcı qüvvəsi yenə də gənc nəsildir. Bunlar dünyada yaşanan qeyri-müəyyən identiklik məsələsinin sosial-psixoloji problemləridir.

Qloballaşan dünyada milli dövlətlərin varlığı sosiopsixoloji baxımdan çox vacibdir. Çünki qloballaşma ilə əlaqədar dünyada baş verən mürəkkəb psixoloji problemlərin mənfi təsirlərindən qorunmaq hər bir dövlət üçün strateji əhəmiyyət daşıdığı kimi, bəşəriyyətin gələcəyi üçün də böyük önəm daşıyır. Bu qlobal problemin aradan qaldırılması istiqamətində bir çox beynəlxalq elmi və siyasi imkanların səfərbər olunmasına ehtiyac vardır. İnsanlığın sağlam psixoloji mühitdə yaşamağa və ümumbəşəri dəyərlərdən öz sərbəst seçimi ilə yararlanmağa təbii hüququ vardır. Əslində təbii qlobal inkişaf sağlam milli təkamülə zidd olmadığı kimi, sağlam milli təkamül də təbii qloballaşma prosesinə zidd deyildir. Onlar bir-birini tamamlayan vahid tarixi prosesin müxtəlif sosiopsixoloji tərəfləridir.

## *ƏDƏBİYYAT*

1. R. Mehdiyev. Azərbaycan: Qloballaşma dövrünün tələbləri. Bakı 2005. s. 253.
2. S. Xəlilov. Şərq və Qərb: Ümumbəşəri ideala doğru. «Azərbaycan Universiteti» nəşriyyatı. Bakı 2004. s 196. (623 s)
3. П.С. Гуревич. Психология чрезвычайных ситуаций. Юнити. Москва 2007. s. 26 (494 s)
4. Розин В.М. Психология и культурное развитие человека. Москва 1994. s. 56. (334 s)
5. Эриксон Э. Идентичность: юность и кризис. Москва 1996. s. 68. (221 s)
6. Пантелеева И.И. О роли интроекции в ситуациях доминирования проекции и (или) проективной идентификации. Психоаналитический вестник. М. 2006. № 15, s.33.
7. Bochner S. The social psychology of cross-cultural relations // Cultures in contact. Oxford, 1982. s. 76. (245 s).
8. Naito, T., Gielen, U.P. The changing Japanese family: A psychological portrait. Inter. Jurnal. London. 2005. № 3, s. 23.
9. Stevenson, H. W., Zusho, A. Adolescence in China and Japan: Adapting to a changing environment. Philadelphia 2002. s.22, (156 s)
10. Songue, P. B. Social influences on adolescent sexuality and reproductive behavior in Southern Cameroon. New-York 2002. s.45, (169 s.).
11. Тоффлер Э. Шок будущего. Москва 2004. s 134. (223 s)
12. Kim Y.Y. Communication and cross-cultural adaptation. Philadelphia, 1988. s.21, (123 s).
13. Науменко Л.И. Этническая идентичность. Проблемы трансформации в постсоветский период. Этническая психология и общество. Москва 1997. с. 78. (233 с.)
14. Fimham A., Bochner S. Culture shock: Psychological reactions to unfamiliar environments. London 1986. s. 77, (189 s).
15. Diggs N., Murphy B. Japanese adjustment to american communities: The case of the Japanese in the Dayton area // Intern. Jurnal. Intercultural Relations, New York 1991. Vol. 15. s. 34.
16. Berry J.W., Poortinga Y.H., Segall M.H., Dasen P.P. Cross-cultural psychology: Research and applications. Cambridge, 1992. s. 47, (221 s)
17. Bennett M.J. A developmental approach to training for intercultural sensitivity // Intern. Jurnal. Intercultural Relations. 1986. Vol. 10. s. 44.
18. Giddens, A. Modernity and self-identity: Self and society in the late modern age. Cambridge, England: Polity Press. 1991. s. 187, (234 s).
19. Phinney, J. S., Devich-Navarro, M. Variations in bicultural identification among African American and Mexican American adolescents. Journal of Research on Adolescence, 1997. VII, *s. 25.*
20. Hermans, H. J. M., Kempen, H. J. G. Moving cultures: The perilous problems of cultural dichotomies in a globalizing society. American Psychologist, New York 1998. *53, s.*1116.
21. Robertson, R. Globalization: Social theory and global culture. London 1992. s. 8.
Tomlinson, J. B. Globalization and culture. Chicago: University of Chicago Press. 1999. s 4.
22. B. B. Brown, R. Larson, T. S. Saraswathi. The world's youth: Adolescence in eight regions of

the globe. New York: 2002. Cambridge University Press. s. 123, (s.105–140).
23. Berry, J. W. Ethnic identity in plural societies. International Journal of Applied Psychology, New York 1993. 45, s. 42.
24. M. E. Bernal. G. P. Knight. Ethnic identity: Formation and transmission among Hispanics and other minorities. Albany: State University of New York Press. s. 26. (s. 271–296).
25. Nsamenang, B. Adolescence in Sub-Saharan Africa: An image constructed from Africa's triple inheritance. International Journal of Applied Psychology, New York 1993. 39, s. 27.
26. Леви-Брюль Л. Сверхъестественное в первобытном мышлении. Москва. Педагогика-Пресс. 1994. s 67 (456 s).
27. Appadurai, A. Globalization. Durham, NC: Duke University Press. 2000. s 34.
28. Marty, M. E., Appleby, R. S. Fundamentalisms and society. Chicago: University of Chicago Press 1993. s. 56.

**ИМДАД БАЙРАМОВ**

## ПРОБЛЕМА ПСИХОЛОГИЧЕСКОЙ ИДЕНТИФИКАЦИИ В УСЛОВИЯХ ГЛОБАЛИЗАЦИИ

Психологической основой социального глобализма является монополия на производство социальных и индивидуальных норм существования, социальных моделей поведения, утверждение адаптивного способа существования человека. К сожалению, для современной психологии характерны только адаптивные концепции человека, а главной задачей психологических исследований является поиск эффективных способов формирования человека, способного успешно адаптироваться в современный ему социум и метасоциум. Можно сказать, что идея адаптивного существования человека является главной и единственной идеей современной психологии. В основе адаптивных психологических концепций, выражающих идею социальной глобализации, лежит субъект-объектный тип отношения индивида и социума. Утверждение социальной природы индивидуального человека в психологическом плане означает признание за социумом права нормотворчества и отказ в этом праве индивидуальному человеку. В современных условиях глобализации эта позиция распространяется уже не только на человека, но и на целые страны, которым реально отказано в праве нормотворчества, и признаётся лишь право нормопотребления. В психологии такая оппозиция обсуждается в терминах культуропотребления и культуропорождения.

**IMDAD BAYRAMOV**

## PROBLEM OF PSYCHOLOGICAL IDENTIFICATION IN CONDITIONS OF GLOBALIZATION

The influence of globalization on psychological functioning is examined. First, descriptions of how globalization is occurring in various world regions are presented. Then the psychological consequences of globalization are described, with a focus on identity issues. Specifically, it is argued that most people worldwide now develop a bicultural identity that combines their local identity with an identity linked to the global culture; that identity confusion may be increasing among young people in non-Western cultures as result of globalization; that some people join self-selected cultures to maintain an identity that is separate from the global culture; and that a period of emerging adulthood increasingly extends identity explorations beyond adolescence, through the mid- to late twenties.

***Rəyçilər: dos.M. Vəliyev, f.e.d.Z.Hacıyev.***
***BDU-nun sosial elmlər və psixologiya fakültəsinin Gender və tətbiqi psixologiya kafedrasının 18 sentyabr 2008-ci il tarixli iclasının qərarı ilə çapa məsləhət görülmüşdür (protokol №05).***